# ŞÜŞƏ SINMASINA QARŞI SIĞORTANIN ƏSAS ŞƏRTLƏRİ

## ÜMUMİ MÜDDƏALAR

Bu şərtlər Azərbaycan Respublikasının «Sığorta haqqında» Qanununa və Mülki məcəlləyə uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

Bu sığorta şərtləri ilə sığortaçı, sığorta şəhadətnaməsində göstərilən şüşə və aynaların sınması nəticəsində sığorta etdirənə dəyən maddi itki və ziyanlara aşağıdakı şərtlərlə təminat verir.

## 2. SIĞORTANIN ƏRAZİSİ

Sığorta, sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikası ərazisində qüvvədədir.

## 3.ƏLAVƏ SIĞORTA HAQQI MÜQABİLİNDƏ SIĞORTA TƏMİNATINA DAXİL EDİLƏN ZƏRƏRLƏR

3.1 Eyni zamanda başqa bir sığorta təminatının obyekti deyildirsə, yanğından, ildırım vurmasından, partlayışdan və yanğın söndürmə zamanı və xilasetmə əməliyyatlarından dəyən itki və ziyanlar;

3.3 Sığortalanmış şüşə və aynaların yerləşdiyi bina və ərazidə aparılan inşaat və yenidənquraşdırma işləridən dəyən itki və ziyanlar;

3.4 Şüşə və aynaların sınması nəticəsində onların üzərindəki qiymətli və ya hər hansı adi yazıların pozulmasından dəyən itki və ziyanlar;

3.5 Tətil, xalq hərəkatları və bunların qarşısının alınması və ya yatırılması məqsədilə görülən hərbi və inzibati tədbirlər nəticəsində dəyən itki və ziyanlar.

## 4. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏLƏR (İSTİSNALAR)

Aşağıdakı hallar nəticəsində meydana çıxan itki və ziyanlar sığorta təminatına daxil edilmir:

4.1. Sığortalanmış şüşə və aynaların yerləşdiyi bina və ərazinin dağılması və ya çökməsi;

4.2. Sığortalanmış şüşə və aynaların yerlərinə qoyulması, taxılması, çərçivədən çıxarılması və ya onların yerləşdiyi yerlərdə, çərçivələrdə aparılan təmir işləri, yerlərinin dəyişdirilməsi və başqa yerə daşınması;

4.3. Sığorta etdirən və ya onunla bir yerdə yaşayan ailə üzvləri və xidmətçiləri tərəfindən sığortalanmış şüşə və aynalara qəsdən vurulan itki və ziyanlar;

4.4. Sığortalanmış şüşə və aynaların səthində meydana gələn cızıqlar və dağılıb qopmalar;

4.5. Şüşə və aynaların taxıldığı çərçivələrin qüsurlu olması;

4.6. Zəlzələ, leysan, sel, daşqın və vulkan püskürməsi;

4.7. Müharibə, hər cür müharibə əməliyyatları, xarici düşmən basqını (müharibə elan olunub-olunmamasından aslı olmayaraq) vətəndaş müharibəsi, üsyan, iğtişaş və bunların qarşısının alınması və yatırılması məqsədilə görülən inzibati və hərbi tədbirlər;

4.8. Hər hansı nüvə partlayışı, radiasiya və radioaktiv çirklənmələr, bunlarla əlaqədar keçirilən hərbi və inzibati tədbirlər;

4.9. Səlahiyyətli şəxslər tərəfindən sığortalanmış şüşə və aynalar üzərində ekspertiza aparılması.

## 5. ƏŞYANIN DƏYƏRİNDƏN AZ MƏBLƏĞDƏ OLAN (NATAMAM) SIĞORTA

Sığorta şəhadətnaməsində göstərilən sığorta məbləği sığortalanmış əşyanın zərərə uğradığı andakı real dəyərindən az olduğu hallarda ödəniş sığorta məbləğinin əmlakın dəyərinə olan nisbətində ödənilir.

Sığorta etdirən, sığorta şəhadətnaməsini yuxarıda göstərilən nisbət nəzərə alınmadan, sığorta məbləğindən artıq olan zərərin bütövlükdə sığortaçı tərəfindən ödənilməsi formasında yalnız sığortaçının razılığı ilə dəyişdirə bilər. Sığorta etdirən, sığorta şəhadətnaməsinin bu formada dəyişdirilməsini sığorta hadisəsi baş verməmişdən əvvəl yazılı şəkildə sığortaçıya bildirməlidir. Sığorta etdirən, sığorta haqqı fərqini sığorta haqqının ödənilmə qaydalarına uyğun olaraq ödəməlidir.

## 6. ƏŞYANIN DƏYƏRİNDƏN ÇOX MƏBLƏĞDƏ OLAN SIĞORTA

Sığorta məbləği və ya sığortaçının zərərlə əlaqədar ödəməli olacağı məbləğ sığortalanmış əşyanın real dəyərindən artıq olarsa, sığorta məbləğinin artıq olan hissəsi etibarsız sayılır

Sığorta müddəti ərzində bundan xəbər tutan sığortaçı, vəziyyəti sığorta etdirənə bildirərək, sığorta haqqının artıq olan hissəsini geri qaytarır.

## 7. FRANŞİZA (SIĞORTA ÖDƏNİŞİNDƏN QİSMƏN AZADOLMA)

Tərəflər sığorta şəhadətnaməsində, sığorta hadisəsi zamanı sığorta məbləğinin müəyyən bir faizinə qədər olan zərərin və yaxud zərərin müəyyən bir faizinin və ya

müəyyən bir məbləğinin sığortaçı tərəfindən ödənilməyəcəyini- franşizanı razılaşlaşdıra bilərlər.

## 8. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI

Sığorta, əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta şəhadətnaməsində göstərilmiş başlanma və sona çatma tarixlərində saat 24.00-da başlayır və saat 24.00-da sona çatar.

## 9. SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ VƏ SIĞORTA MÜQAVİLƏSİNİN QÜVVƏYƏ MİNMƏSİ

9.1. Sığorta haqqının bütövlükdə və ya hissələrlə ödənilməsi razılaşdırıla bilər. Sığorta haqqı (sığorta haqqının birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman, (qalan hissələri isə sığorta şəhadətnaməsində göstərilən tarixlərdə) ödənilməlidir.

9.2. Sığorta haqqı (onun birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman ödənilməsə, sığortaçı sığorta ilə əlaqədar heç bir məsuliyyət daşımır və bu şərt sığorta şəhadətnaməsinində yazılmalıdır.

9.3. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı halda sığorta hadisəsi baş verdiyi zaman ödənilməli olan bütün hissələr sığorta ödənişindən bir dəfəyə çıxılır və bu şərt sığorta şəhadətnaməsinində yazılmalıdır.

9.4. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı hallarda hissələrdən hər hansı biri şəhadətnamədə göstərilən vaxtda ödənilməzsə, sığortaçı həmin hissənin 1 ay ərzində ödənilməsini, əks təqdirdə sığorta şəhadətnaməsinin ləğv ediləcəyini sığorta etdirənin ona bildirmiş olduğu son yaşayış ünvanına sifarişli məktubla bildirir. Sığorta haqqı borcu bu müddət ərzində də ödənilməzsə, sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur. Ləğv etmənin hüquqi qüvvə qazandığı tarixə qədər keçən müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ sığorta etdirənə qaytarılır;

9.5. Əgər sığorta şəhadətnaməsində sığorta haqqının (birinci hissəsinin) ödənilməsinə qədər sığorta şəhadətnaməsinin qüvvəyə minməsi nəzərdə tutulmuşdursa, sığorta haqqı (birinci hissə) sığorta şəhadətnaməsi qüvvəyə mindiyi andan 15 gün ərzində ödənilməlidir.

Sığorta haqqı (birinci hissə) göstərilən müddət ərzində sığortaçıya ödənilməzsə, sığorta şəhadətnaməsi öz qüvvəsini itirir.

## 10. SIĞORTA ETDİRƏNİN SIĞORTA MÜQAVİLƏSİ BAĞLANDIĞI ZAMAN MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

10.1. Sığorta müqaviləsi bağlanarkən sığorta etdirən sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona mə lum olan bütün halları və məlumatları sığortaçıya bildirməlidir.

Sığorta etdirənin bildirdiyi məlumatların yanlış və ya yarımçıq olması aşkar olunarsa:

10.1.1. Sığorta etdirənin bu hərəkəti qəsdən etdiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə ödəniş verməz. Belə olan halda sığortaçı ödənilmiş sığorta haqqını qaytarmaya bilər;

10.1.2. Sığorta etdirənin hərəkətinin qəsdən edilmədiyi müəyyən edilərsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 ay ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, sığorta şəhadətnaməsinin şərtlərini dəyişdirmək və ya əlavə sığorta haqqı almaqla sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

10.1.3. Əgər sığorta etdirən şəhadətnamənin şərtlərinin dəyişdirilməsinə və ya əlavə sığorta haqqı ödəməyə razı olmazsa, sığorta şəhadətnaməsi bu dəyişikliyin baş verdiyi andan etibarsız sayılır.

Sığorta etdirən 15 gün ərzində əlavə sığorta haqqını ödəməzsə, sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

10.2. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etmək hüququ qüvvədən düşür.

10.3. Sığorta etdirənin hərəkətlərinin qəsdən edilmədiyi müəyyən edildiyi hallarda sığorta hadisəsi sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl və ya sığortaçının sığorta şəhadətnaməsinin ləğv olunmasını tələb edə biləcəyi müddət ərzində və yaxud şəhadətnamə ləğv edilmiş hesab olunana qədər keçən müdət ərzində baş verərsə sığortaçı, ödənilən sığorta haqqı ilə ödənilməli olan sığorta haqqı arasındakı nisbət həcmində ödənişi azalda bilər.

## 11. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ SIĞORTA ETDİRƏNİN MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

11.1.Sığorta şəhadətnaməsi imzalandıqdan sonra sığortalanmış şüşə və aynaların sığorta etdirənin bildirirdiyi yer və vəziyyətlərində dəyişiklik baş verərsə, o riskə təsir edə bilən və ona məlum olan bütün dəyişikliklər haqqında sığortaçıya ən geci 8 gün ərzində məlumat verməlidir.

11.2. Sığortaçı dəyişikliyi öyrəndiyi tarixdən etibarən 8 gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı tələb etməklə qüvvədə saxlaya bilər.

11.3. Sığorta etdirən, 8 gün ərzində tələb edilən əlavə sığorta haqqını ödəməyəcəyini bildirdiyi təqdirdə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

11.4. Vaxtında istifadə olunmayan ləğv etmə və ya əlavə sığorta haqqı tələb etmək hüququ qüvvədən düşür.

11.5. Sığortalanmış şüşə və aynaların yeri və vəziyyətində edilən və sığorta riskinin başvermə ehtimalını artıran dəyişiklikləri sığorta etdirən göstərilən müddət ərzində qəsdən bildirməmişdirsə, bu dəyişiklik baş verən andan sonra baş verən zərərlərə görə sığortaçı məsuliyyət daşımır.

11.6. Dəyişiklik riskin başvermə ehtimalını azaldarsa və daha az sığorta haqqının alınmasını tələb edərsə, bu dəyişikliyin edildiyi tarixdən sığorta şəhadətnaməsinin sona çatma tarixinə qədər olan müddət üçün sığorta haqqı gün hesabına görə hesablanır və fərq sığorta etdirənə qaytarılır.

## ZƏRƏR VƏ ÖDƏNİŞ

## 12. SIĞORTA HADİSƏSİ ZAMANI SIĞORTA ETDİRƏNİN VƏZİFƏLƏRİ

Sığorta etdirən, sığorta şəhadətnaməsində göstərilən sığorta risqi baş verdiyi zaman zərərin qarşısını almaq və ya miqdarını azaltmaq üçün zəruri və məqsədəuyğun tədbirlər görməlidir.

Zərərin qarşısını almaq və ya miqdarını azaltmaq məqsədilə çəkilən məqsədyönlü xərclər sığortaçı tərəfindən ödənilir.

Sığortalanmış şüşə və aynalar dəyərindən az məbləğdə sığortalanmışsa, bu zaman sığortaçı çəkilən xərcləri əmlakın dəyəri ilə sığorta məbləği arasındakı nisbətə uyğun olaraq ödəyir.

## 13. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏN SONRA SIĞORTA ETDİRƏNİN VƏZİFƏLƏRİ

**Sığorta hadisəsi baş verdikdən sonra sığorta etdirən:**

13.1. Əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta hadisənin baş verdiyini bildiyi və ya bilməli olduğu gündən etibarən ən gec 5 iş günü ərzində sığortaçıya məlumat verməlidir;

13.2. Zərərin qarşısının alınması və ya azaldılması üçün hərəkətlər istisna olmaqla, sığorta hadisənin baş verdiyi yer və ya əşyalarda heç bir dəyişiklik etməməlidir;

13.3. Hadisənin səbəblərini, şəraitini və şərtlərini müəyyən etmək, zərər və ziyan miqdarını təsbit etmək üçün yararlı dəlilləri və sığorta etdirən üçün əldə edilməsi mümkün olan lazımi məlumat və sənədləri (sənədin əsli və ya özü tərəfindən təsdiq olunmuş surəti və ya fotosurəti) sığortaçının tələbi ilə gecikdirmədən verməli və onları mühafizə etməlidir;

13.4. Ziyan və zərərin təqribi məbləğini göstərən ödəniş sənədini mümkün və münasib bir vaxtda sığortaçıya verməlidir;

13.5. Ödəniş məsuliyyəti və məbləği həcmində iddia hüququnun təsbiti olunması üçün sığortaçının səlahiyyət verdiyi təmsilçilərinə sığortalanmış əmlak və bunlarla əlaqədar sənədlər üzərində aparacaqları araşdırma və tədqiqatlara icazə vermək və bunun üçün müvafiq şərait yaratmalıdır;

13.6. Şüşə və aynalar başqa sığorta şirkətlərində də sığorta etdirilmişdirsə, bunu sığortaçıya bildirməlidir;

13.7. Üçüncü şəxslərin hərəkətləri nəticəsində şüşə və aynalara zərər dəyərsə, şübhələndiyi şəxslər haqqında səlahiyyətli orqanlara məlumat və mümkün olan hallarda şahidlik izahatı verməlidir.

## 14. ZİYAN VƏ ZƏRƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

14.1. Sığortalanmış şüşə və aynalara dəymiş ziyanın məbləği sığorta etdirən ilə sığortaçı arasındakı razılaşmaya görə müəyyən edilir.

Tərəflər razılığa gələ bilmədikləri təqdirdə ziyan və zərərin miqdarı mütəxəssis şəxslər arasından seçiləcək və mütəxəssis və ya ekspert adlandırılan şəxslər tərəfindən müəyyən edilir.

14.2. Tərəflər müştərək mütəxəssis və ya ekspert seçməkdə razılığa gələ bilmədikləri halda tərəflərdən hər biri öz mütəxəssis və ya ekspertini təyin edir və bunu sifarişli məktub şəklində digər tərəfə bildirir. Mütəxəssis və ya ekspertlər təyin olunduqları tarixdən etibarən 7 gün ərzində və tədqiqata başlamazdan əvvəl üçüncü bitərəf mütəxəssisi və ya eksperti seçə bilərlər. Üçüncü mütəxəssis və ya ekspert yalnız tərəflərin mütəxəssis və ya ekspertlərinin razılığa gələ bilmədikləri məsələlər barəsində rəy vermək hüququna malikdir. Üçüncü mütəxəssis və ya ekspert rəyini müstəqil şəkildə və ya tərəflərin mütəxəssis və ya ekspertləri ilə birlikdə verə bilər. Üçüncü mütəxəssis və ya ekspertin rəyi tərəflərə eyni zamanda çatdırılır;

14.3. Tərəflərdən hər hansı biri digər tərəfə məlumat verdiyi tarixdən etibarən 15 gün ərzində öz mütəxəssis və ya ekspertini təyin etməzsə, yaxud tərəflərin seçdiyi mütəxəssis və ya ekspertlər üçüncü mütəxəssis və ya ekspertin seçilməsi barəsində seçildikləri tarixdən etibarən 7 gün ərzində razılığa gələ bilməzlərsə, mütəxəssis və ya ekspertlərin və ya üçüncü bitərəf mütəxəssis və ya ekspert tərəflərdən birinin təklifi ilə zərərin baş verdiyi ərazidə yerləşən mülki mübahisələrə baxmağa səlahiyyəti olan məhkəmə tərəfindən seçilir;

14.4. Hər iki tərəf üçüncü mütəxəssis və ya ekspertin sığortaçının və ya sığorta etdirənin yerləşdiyi və ya zərərin meydana gəldiyi rayon xaricindən seçilməsini tələb etmək hüququna malikdir və bu tələbin yerinə yetirilməsi vacibdir;

14.5. Mütəxəssis və ya ekspert vəfat edərsə, vəzifəsindən azad edilərsə və ya rədd edilərsə, yenisi eyni yolla seçilir və araşdırma işi dayandırıldığı yerdən davam etdirilir;

14.6. Sığorta etdirənin vəfat etməsi ilə təyin edilmiş mütəxəssis və ya ekspertin vəzifəsi bitmir. Mütəxəssis və ya ekspertlərin ixtisas səviyyələrinin aşağı olmasına görə edilən etiraz, bu şəxslərin ixtisas səviyyələri müəyyən edildiyi tarixdən etibarən 7 gün ərzində edilmədiyi halda hüquqi qüvvəsini itirir;

14.7. Mütəxəssis və ya ekspertlər öz tədqiqatlarında tamamilə müstəqildirlər;

14.8. Ziyan və zərərlərin miqdarının müəyyənləşdirilməsi zamanı mütəxəssis və ya ekspertlər lazımi bildikləri dəlilləri, zərər zamanı sığortalanmış əmlakın real dəyərinin müəyyənləşdirilməsinə kömək edən qeyd və sənədləri tələb edə və hadisənin baş verdiyi yerdə təhqiqatlar apara bilərlər;

14.9. Mütəxəssis və ya ekspertlərlərin ziyan və zərərin miqdarı haqqında verəcəyi rəy qətidir və tərəflər buna əməl etməlidirlər.

Mütəxəssis və ya ekspertin qərarına ancaq, qərarın real vəziyyətindən əhəmiyyətli dərəcədə fərqli olduğu müəyyən olunduğu hallarda etiraz etmək olar və bu rəyin ləğv edilməsi onun bildirildiyi tarixdən 1 həftə ərzində hadisənin baş verdiyi ərazinin səlahiyyətli məhkəməsi tərəfindən həyata keçirilə bilər;

14.10. Tərəflər ödənişin məbləği haqqında razılığa gələ bilmədikdə, veriləcək ödənişin məbləği ancaq mütəxəssis və ya ekspertlərin rəyinə əsaslanır. Ödənişin verilməsi raportun tərəflərə göndərildiyi tarixdən əvvəl həyata keçirilə bilməz.

14.11. Tərəflər öz mütəxəssis və ya ekspertinin haqqını ayrı ayrılıqda, birlikdə seçdikləri mütəxəssis və ya ekspertin və ya üçüncü mütəxəssis və ya ekspertin haqqını birlikdə ödəyirlər.

14.12. Ziyan və zərərin məbləğinin müəyyənləşdirilməsi zamanı risklər, sığorta məbləği, dəyərindən artıq məbləğdə sığorta, məsuliyyətin müddəti, hüquqları məhdudlaşdıran və hüquqlardan məhrum etmə halları əsas kimi nəzərə alınmır.

## 15. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI

Sığortalanmış şüşə və aynaların sınması zamanı sığortaçı zərəri (əgər franşiza yoxdursa), sığorta məbləği həddində ödəyir.

Sığortaçı sınmış şüşə və aynaları yenisi ilə əvəz edə bilər. Belə olduqda, sınmış şüşə və aynalar sığortaçının mülkiyyətinə keçir. Sığorta məbləği əmlakın dəyərindən az olduğu halda ödəniş sığorta məbləği ilə əmlakın dəyəri arasındakı nisbətə görə ödənilir.

## 16. ÖDƏNİŞ MƏBLƏĞİNİN AZALDILMASI VƏ YA RƏDD EDİLMƏSİ

Sığorta etdirən, sığorta hadisəsi baş verdiyi zaman vəzifələrini yerinə yetirməzsə və bunun nəticəsində zərər və ziyan məbləği artarsa, sığortaçının ödəyəcəyi sığorta ödənişindən artan hissə çıxılır.

Sığorta etdirən sığorta hadisəsinin baş verməsinə qəsdən şərait yaradarsa və ya ziyan və zərər miqdarını qəsdən edilən hərəkətlər ilə artırarsa, sığorta etdirənin ödəniş tələbi rədd edilir.

## 17. ÖDƏNİŞİN VERİLMƏSİ HAQQINDA MƏLUMAT

Sığortaçı, zərərin miqdarını göstərən sənədlərin ona verilməsindən sonra ən geci 15 iş günü ərzində müvafiq təhqiqatları sona çatdıraraq zərər və ziyanın məbləğini müəyyən etdikdən sonra sığorta etdirənə məlumat verməlidir.

## 18. ÖDƏNİŞİN NƏTİCƏLƏRİ

18.1. Sığortaçı ödədiyi sığorta ödəniş məbləğinin müqabilində sığorta etdirənin günahkar üçüncü şəxslərə qarşı iddia qaldırmaq hüququna sahib olur. Sığorta etdirən

sığortaçının reqres qaydasında qaldıracağı iddia üçün yararlı və əldə edilməsi mümkün olan sənəd və məlumatları verməyə borcludur.

18.2. Təminat verilən sığorta hadisəsinin baş verməsi və sığortalanmış şüşə və aynalara sığorta şəhadətnaməsində göstərilmiş məbləğdə ziyan dəyməsi halında sığorta təminatı sona çatır.

18.3. Qismən zərərlər baş verdikdə, sığorta məbləği zərər tarixindən etibarən ödənilən ödəniş məbləği qədər azaldılır.

Sığorta məbləğinin azaldığı hallarda sığorta etdirən zərər tarixindən etibarən gün hesabına görə əlavə sığorta haqqı ödəyərsə, sığorta məbləği əvvəlki məbləğə qaytarıla bilər.

18.4. Qismən zərərlərdə tərəflər sığorta şəhadətnaməsini ləğv etmək hüququna malikdir. Sığortaçı ləğv etmə hüququndan yalnız ödənişi verdikdən sonra istifadə edə bilər.

## 19. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

Bu şərtlərdə nəzərdə tutulmayan digər hallarda sığorta etdirənin və ya sığortaçının təşəbbüsü ilə sığorta müqaviləsinə xitam verilə bilər.

Sığorta müqaviləsinə sığorta etdirənin təşəbbüsü ilə xitam verilərsə, müqaviləyə xitam verilən vaxta qədər keçən müddətin sığorta haqqı qısa müddət hesabına görə hesablanır və artıq qalan məbləğ (əgər qalarsa), sığortaçının bu müqavilə ilə əlaqədar çəkdiyi xərcləri çıxmaqla sığorta etdirənə qaytarılır.

Sığorta müqaviləsinə sığortaçının təşəbbüsü ilə xitam verilərsə, müqaviləyə xitam verilən vaxta qədər keçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ (əgər qalarsa), sığortaçının bu müqavilə tlə əlaqədar çəkdiyi xərcləri çıxmaqla sığorta etdirənə qaytarılır.

## DİGƏR MÜDDƏALAR

## 20. BİR NEÇƏ SIĞORTA

Sığorta etdirən, sığortalanmış şüşə və aynaları başqa sığortaçılarda da eyni risklərə qarşı və eyni müddətə sığorta etdirmişdirsə, bu vəziyyəti sığortaçıya dərhal bildirməlidir.

## 21. MÜLKİYYƏT SAHİBİNİN DƏYİŞMƏSİ

21.1. Sığortalanmış şüşə və aynaların hüquqi sahibi dəyişdikdə sığorta müqaviləsi qüvvədə qalır və sığorta etdirənin sığorta şəhadətnaməsindən irəli gələn hüquq və vəzifələri yeni hüquq sahibinə keçir. Belə olduqda sığortanın mövcudluğundan xəbərdar olan yeni hüquq sahibi sığortanı davam etdirmək haqqında məlumatı 15 gün ərzində sığortaçıya bildirməlidir. Bu vəzifəyə əməl olunmazsa sığortaçı məsuliyyətindən azad olur.

21.2. Sığortaçı dəyişikliyi, yeni hüquq sahibi isə sığortanın mövcudluğunu öyrəndiyi tarixdən etibarən 8 gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilərlər. Vaxtında istifadə olunmayan ləğv etmə hüququ quvvədən düşür.

21.3. Ləğv etmənin hüquqi qüvvə qazandığı tarixə qədər keçən müddətin sığorta haqqı, sığorta şəhadətnaməsi sığortaçı tərəfindən ləğv edildikdə gün hesabına görə, yeni hüquq sahibi tərəfindən ləğv edildikdə isə qısa müddətli sığorta kimi hesablanır və artığı yeni hüquq sahibinə qaytarılır.

21.4. Sığorta etdirən vəfat edərsə bu sığortadan irəli gələn bütün hüquq və vəzifələr yeni hüquq sahibinə (varisə) keçir.

## 22. MƏLUMAT VƏ XƏBƏRDARLIQLAR

22.1. Sığorta etdirənin xəbərdarlıq və məlumatları sığorta şirkətinin mərkəzinə və ya sığorta müqaviləsinin bağlanmasına vasitəçilik edən agentə sifarişli məktubla çatdırılır.

22.2. Sığorta şirkətinin xəbərdarlıq və məlumatları sığorta etdirənin sığorta şəhadətnaməsində göstərilən hüquqi ünvanına və ya sığorta şəhadətnaməsinin imzalanmasına vasitəçilik edən agentə bildirilən son huquqi ünvanına sifarişli məktubla çatdırılır.

22.3. Tərəflərə imza edilməklə verilən məktublar və ya teleqraf vasitəsi ilə edilən xəbərdarlıq və məlumatlar da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

## 23. İŞ SİRRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığorta etdirənə aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 24. MÜBAHİSƏLƏRƏ BAXILMASI

Tərəflər sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələri danışıqları yolu ilə həll edirlər. Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyəti məhkəmələrdə baxılır.

## 25. MÜDDƏT

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 26. XÜSUSİ ŞƏRTLƏR

Sığorta şəhadətnaməsində əsas şərtlərə və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.